# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ

İ M T A H A N   İ Ş T İ R A K Ç I S I N I N

# Y A D D A Ş K İ T A B Ç A S I

(Mədəniyyət Nazirliyi sisteminə daxil olan məktəb və mərkəzlərə
direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu üçün test imtahanına dair)

Aşağıdakıları imtahana gətirmək qəti qadağandır:



İmtahan binasına giriş zamanı üzərində mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, konspekt və  başqa yardımçı vasitələr aşkar olunan iştirakçılar barədə akt tərtib olunur, bu vasitələr və onların imtahan sənədləri götürülür və onlar imtahan binasına buraxılmırlar.

2024

## İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:

1. Siz imtahan günü buraxılış vərəqənizdə göstərilən vaxtda imtahan verəcəyiniz binanın qarşısına gəlməli (bina haqqında məlumat imtahana buraxılış vərəqənizdə göstərilmişdir), özünüzlə mütləq qara və ya tünd göy rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələm və (və ya) HB sərtliyində sadə karandaş, qələmyonan, pozan, qol saatı və aşağıdakı sənədləri gətirməlisiniz:
   - **şəxsiyyət vəsiqəsi**;
   - **imtahana buraxılış vərəqəsi.**

| |
|---|
| **Musiqi istiqaməti üzrə imtahan verən iştirakçıların nəzərinə!** İmtahana gələrkən özünüzlə mütləq HB sərtliyində sadə karandaş, qələmyonan və pozan gətirməlisiniz. Not vərəqi nümunəsi sizə təqdim olunacaq sual kitabçasında verilmişdir. |

2. **İmtahan iştirakçısı aşağıdakı hallarda imtahana buraxılmır:**
   - tələb olunan sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
   - saxta sənəd təqdim etdikdə;
   - imtahan binasına imtahanın başlanmasına 15 dəqiqə qalmış gəldikdə;
   - imtahana içkili vəziyyətdə gəldikdə;
   - imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.
3. Göstərilən sənədləri imtahan binasının giriş qapısında buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşlarına təqdim edib yoxlamadan keçdikdən sonra imtahana buraxılış vərəqənizdə göstərilmiş müvafiq kodlu zala gedin.

## İŞTİRAKÇININ İMTAHAN ZALINDA GÖRƏCƏYİ İŞLƏR:

1. İmtahan zalında imtahana buraxılış vərəqəsində göstərilən yerdə oturduqdan sonra nəzarətçinin izahatını diqqətlə dinləyin. Aydın olmadıqda əlinizi qaldırıb nəzarətçiyə müraciət edin.
2. İmtahanda davranış qaydaları və texnoloji tələblərlə bağlı izahat işi qurtardıqdan sonra nəzarətçi sizə cavab kartlarını paylayır. Cavab kartını qara və ya tünd göy rəngdə yazan mürəkkəb axıtmayan diyircəkli qələmlə və ya sadə karandaşla doldurun. Cavab kartındakı məlumatlar optik qurğu vasitəsilə oxunur. Ona görə də cavab kartı ilə işləyərkən ehtiyatlı olun. Dairələri tam qaralayın (nümunə●), kartın əks üzünün qabarmaması üçün qələmi bərk basmayın. Kartı əzmək, ləkələmək, zədələmək və ya cırmaq olmaz.

   **DİQQƏT!** Korlanmış cavab kartı dəyişdirilmir.

3. Sizə məxsus cavab kartının 1-ci bölməsində iş nömrəniz, soyadınız, adınız və atanızın adı çap edilmişdir. Özünüz haqqında çap edilmiş həmin məlumatları yoxlayın. Uyğunsuzluq aşkar etdikdə mütləq nəzarətçiyə müraciət edib məsələyə aydınlıq gətirin. 2-ci bölmədə özünüz haqqında məlumatları yazın və qaydalara zidd hərəkətə yol verməyəcəyiniz barədə bu bölmədəki Bəyannamə ilə tanış olun. Cavab kartında özünüz haqqında yazdığınız məlumatların düzgünlüyünü və Bəyannamə ilə tanış olduğunuzu imzanızla təsdiq edin. 3-cü bölmədə sizə veriləcək sual kitabçasının variantı çap edilmişdir.

   Cavab kartının arxa üzündə soyadınızı və adınızı müvafiq sətirlərə yazıb, imza edin.
4. İmtahanın başlanmasına bir dəqiqə qalmış sizə sual kitabçaları paylanır. Sizə verilən sual kitabçasının üzərində iş nömrəniz, soyadınız, adınız və atanızın adı çap edilmişdir. **Müəllimlərin işə qəbul imtahanında namizədin seçdiyi müvafiq istiqamətin (musiqi və ya təsviri sənət və ya xoreoqrafiya sənəti) adı da sual kitabçasının üzərində göstərilmişdir.** Kitabça sizə məxsus deyilsə, dərhal nəzarətçiyə müraciət edin. Belə ki, imtahan nəticələriniz qiymətləndirilərkən cavablarınız üzərində sizin adınız yazılmış və cavab kartınızda göstərilmiş varianta uyğun sual kitabçasının doğru cavabları ilə müqayisə ediləcəkdir. Sual kitabçasının sizə düzgün təqdim olunduğuna əmin olun. Bəyannamə bölməsində soyadınızı, adınızı və ata adınızı yazaraq imza edin.

   Nəzarətçi sual kitabçalarını açmağa icazə verdikdən sonra onu vərəqləyərək çap qüsurlarının olub-olmamasını yoxlayın. Belə qüsurlar varsa, nəzarətçiyə müraciət edin.
5. "İmtahan başlandı!" elan edilən andan suallara cavab vermək üçün ayrılan vaxtdan səmərəli istifadə edin. Cavabların cavab kartında qeyd olunması (uyğun dairələrin qaralanması) üçün sərf olunan vaxt da imtahan müddətinə daxildir.

6. **İmtahan müddəti** direktor və direktor müavinlərinin işə qəbulu imtahanında 3 saat, müəllimlərin işə qəbulu imtahanında isə 2 saatdır.
7. Cavab kartının cavablar üçün ayrılmış hissəsi sual kitabçasındakı sualların ardıcıllığına uyğun olaraq sıralanmışdır:

   a) **Direktor və direktor müavinilərinin işə qəbulu imtahanında 100 test tapşırığı təqdim olunur.** Sual kitabçasında verilən 1-50-cı tapşırıqlar normativ hüquqi aktlar üzrə bilikləri, 51-65-ci tapşırıqlar pedaqogika və pedaqoji psixologiya bacarıqları, 66-80-cı tapşırıqlar məntiqi təfəkkürü, 81-100-cü tapşırıqlar isə ümumi dünyagörüşünü yoxlayan qapalı tipli test tapşırıqlarıdır. Normativ hüquqi aktlar üzrə tapşırıqlarda 4 cavab bəndindən (A, B, C, D), digər tapşırıqlarda isə 5 cavab bəndindən (A, B, C, D, E) istifadə olunur.

   b) **Müəllimlərin işə qəbulu imtahanında 70 test tapşırığı təqdim olunur.** Sual kitabçasında verilən 1-40-cı tapşırıqlar seçdiyiniz müvafiq sahə üzrə ixtisas biliklərini, 41-50-ci tapşırıqlar pedaqogika üzrə bacarıqlarını, 51-60-cı tapşırıqlar məntiqi təfəkkürü, 61-70-ci tapşırıqlar isə ümumi dünyagörüşünü yoxlayan qapalı tipli test tapşırıqlarıdır. Test tapşırıqlarında 5 cavab bəndindən (A, B, C, D, E) istifadə olunur.
8. Cavablarınızı yazarkən hər bir sualın cavabını cavab kartında həmin suala uyğun sırada qeyd edin. Sual kitabçasında hər bir suala verilmiş dörd və ya beş cavabdan düzgün hesab etdiyiniz yalnız bir cavabı seçin və cavab kartında ona uyğun dairəni nümunəyə uyğun formada qaralayın. Əgər bir suala cavab olaraq iki və daha çox dairə qaralanarsa, həmin cavab səhv hesab edilir.
9. Hər düzgün cavab bir balla qiymətləndirilir. Səhv cavablar ümumi nəticəyə təsir göstərmir.

---

**DİQQƏT!**

- Ballarınız hesablanarkən yalnız cavab kartında kodlaşdırdığınız cavablar nəzərə alınır. Sual kitabçasında apardığınız qeydlər heç bir hüquqi əhəmiyyət daşımır.
- Cavabların cavab kartında kodlaşdırılması ilə əlaqədar apellyasiya müraciətlərinə baxılmır.
- Başqasının cavablarını köçürməyin. Diqqətli olun ki, sizin cavablarınızı da heç kim köçürməsin. Nəticələriniz yoxlanarkən xüsusi araşdırma zamanı köçürmə faktı aşkar edilərsə, imtahan nəticələriniz ləğv olunacaqdır.
- İmtahanın gedişi zamanı hər bir iştirakçı öz cavab kartının və sual kitabçasının qorunmasına və korlanmamasına şəxsən məsuliyyət daşıyır.

---

10. Hesablamaları və qeydləri aparmaq üçün sual kitabçasında boş yerlər nəzərdə tutulmuşdur. Buna görə də əlavə kağızdan istifadə etməyə icazə verilmir.
11. “İmtahan başlandı” elan olunan andan etibarən **1 saat müddətində və imtahanın qurtarmasına qalmış son 15 dəqiqə ərzində imtahandan çıxmağa izacə verilmir.**
12. “İmtahan qurtardı!” elan olunduqda cavab kartınızı və sual kitabçanızı mütləq nəzarətçiyə təhvil verin. Cavab kartının və sual kitabçasının təhvil verilməsinə görə siz şəxsən məsuliyyət daşıyırsınız.
13. Cavab kartını və sual kitabçasını nəzarətçiyə təhvil verdikdən sonra imtahana buraxılış vərəqənizdə nəzarətçiyə imza etdirməlisiniz. Cavab kartınızı və sual kitabçanızı nəzarətçiyə təhvil verməsəniz, imtahan nəticələriniz ləğv olunacaqdır.

**NAMİZƏDƏ QADAĞANDIR:**

- saxta sənəd təqdim etmək,
- imtahana öz yerinə başqasını göndərmək;
- imtahan binasına, zalına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, məlumat kitabçası, çanta, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

---

**DİQQƏT!**

- İştirakçının imtahan binasına qadağan edilmiş vasitə, vəsait və ya əşya keçirdiyi müəyyənləşdirilərsə bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.
- Texniki vasitələrin informasiya ötürücülük xüsusiyyətini müəyyənləşdirmək mümkün olmadıqda bu vasitələrin də imtahan binasına buraxılmasına icazə verilmir.

---

- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu növ əşyalarla imtahan binasına girmək, özü ilə yemək, içmək (şəffaf plastik qabda qazsız, içməli su istisna olmaqla), siqaret gətirmək;
- sual kitabçaları paylandıqdan sonra, hər hansı bir səbəbə görə, imtahan zalını tərk edib yenidən geri dönmək;
- nizam-intizam qaydalarını pozmaq;
- zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
- başqasının cavab kartına, sual kitabçasına baxmaq və ya öz cavab kartına, sual kitabçasına başqasının baxması üçün şərait yaratmaq;
- "İmtahan başlandı" elan olunan andan etibarən **1 saat müddətində və imtahanın qurtarmasına qalmış son 15 dəqiqə ərzində,** səbəbindən asılı olmayaraq, imtahan zalından çıxmaq;
- nəzarətçiyə test tapşırıqlarının həllində kömək üçün müraciət etmək.
- Cavab kartını və sual kitabçasını nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

**Belə hallar aşkar olunarsa, həmin iştirakçı imtahandan xaric olunacaq və onun imtahan nəticələri DİM tərəfindən ləğv olunacaqdır.**

DİM-in iştirakçının imtahan qaydalarına zidd hərəkətini imtahandan sonra da aşkar etmək üçün müxtəlif üsulları vardır.

Qəbul Qaydalarında hər hansı bir pozuntuya və saxtakarlığa yol verməsinə görə (saxta sənəd təqdim etmə, köçürmə, köçürməyə şərait yaratma, imtahana öz yerinə başqasını göndərmə və qəbul qaydalarına zidd digər hərəkətlər) iştirakçının imtahan nəticələrinin ləğv olunması və onun haqqında müvafiq inzibati-hüquqi tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Siz cavab kartının 2-ci bölməsində belə hallara yol verməyəcəyiniz barədə öz üzərinizə öhdəlik götürərək Bəyannamə imzalayırsınız.

Əgər siz imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin, nəzarətçi lazımi ölçü götürməzsə, imtahan rəhbərinin zala gəlməsini tələb edin.

Nəzarətçi müəllimlərin fəaliyyəti imtahan prosesinin tələblərinə uyğun olmazsa, bu barədə imtahan rəhbəri zala gəldikdə ona məlumat verin.

***Sizə müvəffəqiyyətlər arzulayırıq!***